

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 68 (21.220)

9 aprel 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi, enerji, mədəni, turizm və digər sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı, insan haqları məsələləri ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycanda bu istiqamətdə uğurlu işlərin həyata keçirildiyi bildirilərək ölkəmizdə sərbəst toplaşma azadlığı, media, fikir, internet və digər azadlıqların təmin olunduğu qeyd edildi. Söhbət zamanı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün də yaxşı imkanların olduğu vurğulandı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti, Səudiyyə Ərəbistanı Krallığının Gənclər və İdman naziri, Milli Olimpiya Komitəsinin prezidenti Şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Kəngərli rayonunda yeni nasos stansiyası və suvarma şəbəkəsi istifadəyə verilmişdir

“Kənd təsərrüfatı ili”ndə muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərin əhatə dairəsi xeyli genişləndirilmişdir. İrriqasiya sistemlərinin normal istismarının təşkil edilməsi və torpaq sahələrinin əkin dövriyyəsinə qatılması istiqamətində ardıcıl tədbirlər görülür. Kəngərli rayonunda müasir suvarma şəbəkələrinin qurulması da bu sahədə görülən işlərin davamıdır.

Aprelin 8-də Kəngərli rayonunda yeni nasos stansiyası və suvarma şəbəkəsi istifadəyə verilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsi inkişaf etdirilir, müasir suvarma şəbəkələrinin qurulması diqqət mərkəzində saxlanılır. Ötən dövr ərzində bu istiqamətdə bir sıra layihələr həyata keçirilmiş, subartezian quyuları qazılmış, nasos stansiyaları tikilmiş, su anbarları və hidrotexniki qurğular əsaslı təmir olunmuşdur. Torpaq sahələrinin dayanıqlı suvarma suyu ilə təminatına hərtərəfli şərait yaradan bu işlər “Kənd təsərrüfatı ili”ndə də davam etdirilir. Yaradılan şərait mövcud hidroresurslardan səmərəli istifadə edilməsinə və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Kəngərli rayonunda suvarma sistemlərinin təkmilləşdirilməsi layihəsi də bu sahədə görülən işlərin tərkib hissəsidir. Layihəyə uyğun olaraq, yeni nasos stansiyası tikilmiş və ərazidə müasir suvarma sistemləri qurulmuşdur. Əsgər Əsgərov meliorasiya və su təsərrüfatı sisteminin inkişafına göstərilən qayğıya görə muxtar respublika melioratorları adından minnətdarlıq etmişdir.

Böyükdüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Saleh Quliyev minnətdarlıq edərək demişdir ki, uzun müddətdir, əkilməyən torpaq sahələrinin yenidən əkin dövriyyəsinə qatılması sakinlər tərəfindən böyük rəğbətlə qarşılanır. Çünki Kəngərli rayonunun Böyükdüz, Təzəkənd, Yeni Kərki və Xıncab kəndlərində torpaqlar dəmyə üsulu ilə əkildiyindən məhsuldarlıq yüksək olmurdu. Yeni nasos stansiyasının istifadəyə verilməsi taxıl əkini sahələrinin genişlənməsinə və bol məhsul istehsalına zəmin yaratmışdır. Bu da sakinlərin güzəranının daha da yaxşılaşmasına imkan verəcək, onların torpağa bağlılığını artıracaqdır. Dövlətin dəstəyini daim üzərlərində hiss edən insanlar daha böyük əzmlə çalışacaq, muxtar respublikada ərzaq bolluğunun yaradılmasına öz töhfələrini verəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni nasos stansiyasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını və sakinləri təbrik edərək demişdir: “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 12 yanvar tarixli Sərəncamı ilə bu il ölkəmizdə “Kənd təsərrüfatı ili” elan edilmişdir. Hazırda ölkəmizdə, eləcə də muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Meliorasiya və su təsərrüfatı sistemləri olmadan, torpaqların su təminatını ödəmədən isə kənd təsərrüfatının inkişafını təmin etmək mümkün deyil. Ona görə də “Kənd təsərrüfatı ili”ndə muxtar respublikada bu cür rentabelli suvarma şəbəkəsinin və nasos stansiyasının istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır. Nasos stansiyasının əhatə etdiyi torpaq sahələrini heç vaxt suvarmaq mümkün olmayıb. Bu gün isə nasos stansiyasının istifadəyə verilməsi ilə ərazi suvarma suyu ilə tam təmin olunmuşdur”.



Ali Məclisin Sədri demişdir: “Kəngərli rayonu ərazisində yeni suvarma şəbəkəsinin və nasos stansiyasının qurulması layihəsini reallaşdırmaq Uzunoba Su Anbarını daimi su ilə qidalandırmaq imkanı yarandıqdan sonra mümkün olmuşdur. Belə ki, Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi ilə Uzunoba Su Anbarının su təminatı xeyli yaxşılaşdırıldı. Bundan sonra yeni suvarma şəbəkəsinin və nasos stansiyasının qurulması istiqamətində ardıcıl tədbirlər görüldü, layihə hazırlandı və tikinti işlərinə başlanıldı. Artıq Kəngərli rayonunda suvarma sistemlərinin təkmilləşdirilməsi layihəsinin birinci mərhələsi başa çatmış, Uzunoba Su Anbarı təmir olunmuş, yeni su xətləri çəkilmiş, nasos stansiyası tikilmişdir. Layihənin ikinci mərhələsində isə Kəngərli rayonunun Xok kəndinə qədər olan ərazilərin suvarma suyu ilə təmin olunması nəzərdə tutulub”.

Qeyd olunmuşdur ki, torpaq sahələrinin quruluşuna uyğun olaraq, nasos stansiyaları birpilləli və ikipilləli tikilir. İkipilləli nasos stansiyalarında isə elektrik enerjisindən artıq istifadə olunur. Kəngərli rayonunda suvarma sistemlərinin təkmilləşdirilməsi layihəsinin əhəmiyyəti ondan ibarətdir ki, yeni nasos stansiyası ikipilləli olmasına baxmayaraq, 3300 hektar torpaq sahəsi yalnız öz axımı, 2500 hektar ərazi isə nasos stansiyası vasitəsilə suvarılacaqdır. Həmçinin nasos stansiyasının istifadəyə verilməsi ilə yeni iş yerləri açılmışdır. Ona görə də bu nasos stansiyası hazırda muxtar respublikadakı nasos stansiyaları içərisində ən rentabellisidir. Yaradılan şərait əkin dövriyyəsinə daxil edilən yeni torpaq sahələrində taxıl və tərəvəz bitkiləri əkinlərinin aparılmasına, bol məhsul istehsalına, bir sözlə, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edəcəkdir.

Ali Məclisin Sədri demişdir: “Kəngərli rayonunda 5800 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməsinin böyük iqtisadi əhəmiyyəti vardır. Çünki muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması məsələsi hələ Sovetlər Birliyi dövründən problem olaraq qalırdı. Suvarma sistemlərinin və hidrotexniki qurğuların tələb olunan səviyyədə olmaması bu işin həyata keçirilməsində çətinliklər yaradırdı. Lakin son illər ölkəmizdə, eləcə də muxtar respublikada meliorasiya və su təsərrüfatı sisteminin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yeni hidrotexniki qurğuların tikilməsi, rentabelli suvarma şəbəkələrinin qurulması torpaqların əkin dövriyyəsinə qatılmasına və məhsul istehsalının artmasına səbəb olmuşdur.

Ardı 2-ci səhifədə

Bu iş bu gün də davam etdirilir. Ölkə Prezidentinin 2014-cü il 25 dekabr tarixli "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər" haqqındakı Sərəncamına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasına 2 milyon manat vəsait ayrılmışdır. Ayrılan vəsait muxtar respublika ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün subartezian quyularının qazılmasına sərf olunacaqdır. Hazırda muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür, kənd yaşayış məntəqələrində yeni subartezian quyuları qazılır, kaptajlar tikilir, nasos stansiyaları qurularaq istifadəyə verilir".

Ali Məclisin Sədri sakinlərin öz pay torpaqlarından, aid qurumların isə dövlət mülkiyyətində olan torpaqlardan səmərəli istifadə edəcəklərinə əminliyini bildirmiş, bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri Kəngərli rayonunda suvarma şəbəkəsinin və nasos stansiyasının qurulmasında fərqlənən işçiləri qiymətli hədiyyələrlə mükafatlandırmış, yeni suvarma şəbəkəsinin baş planına baxmış, nasos stansiyasını işə salmışdır.

Məlumat verilmişdir ki, əkin dövriyyəsinə qatılan torpaq sahələrinin suvarılmasında qidalandırıcı mənbə kimi Uzunoba Su Anbarından istifadə ediləcəkdir. Bu məqsədlə ötən il anbarda əsaslı təmir işləri aparılmış, su tutumu 8 milyon kubmetrə çatdırılmışdır. Anbardan suyun öz axımı ilə Kəngərli rayonunun ərazisinə verilməsi üçün hər birinin uzunluğu 16,2 kilometr, su sərfi isə saniyədə 900 litr olan 720 millimetrlik qoşa boru xətti çəkilmişdir. Bundan başqa, ərazidə müxtəlif diametrli paylayıcı boru xətləri çəkilmiş, subufaxıcılar qoyulmuşdur.

Nasos stansiyasında biri ehtiyatda olmaqla, 3 aqreqat quraşdırılmış, 1500 kubmetrlik suqəbuledici hovuz tikilmişdir. Almaniya istehsalı olan bu aqreqatların hər birinin su sərfi saatda 1200 kubmetrdir. Nasos stansiyasını elektrik enerjisi ilə təmin etmək üçün 3 min kilovat gücündə transformator quraşdırılmışdır. Stansiya binasındakı elektron idarəetmə sistemi vasitəsilə aqreqatların avtomatik işə salınması və işləmə rejiminə nəzarət etmək mümkündür. Su nasos stansiyasından Təzəkənd ərazisində tikilmiş 250 kubmetrlik supaylayıcı hovuza vurulur və buradan şəbəkəyə ötürülür. Bunun üçün nasos stansiyasından supaylayıcı hovuza qədər 8,7 kilometr məsafədə təzyiqli boru xətti çəkilmişdir.

Ali Məclisin Sədri Kəngərli rayonunda suvarma sistemlərinin təkmilləşdirilməsi layihəsinin ikinci mərhələsi üzrə işlərə başlanılması barədə tapşırıqlar vermişdir.

## Muxtar respublikada taxıl əkini sahələri genişləndirilir



Naxçıvan Muxtar Respublikasında strateji ərzaq məhsulu taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqət mərkəzində saxlanılır. Hər il əkin sahələrinin su təchizatı yaxşılaşdırılır, torpaq mülkiyyətçiləri güzəştli şərtlərlə texnika, yanacaq və mineral gübrələrlə təmin olunurlar. Bu da öz bəhrəsini verir, sahələrdən bol məhsul yığılır.

Aprelin 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət" Toxumçuluq Təsərrüfatının yeni taxıl əkini sahələrinə baxmışdır.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Elşad Əliyev məlumat vermişdir ki, bu sahələr ilk dəfədir, əkilir və yeni istifadəyə verilmiş suvarma şəbəkəsi vasitəsilə suvarılacaqdır. Əkin işlərinin vaxtında aparılması və taxılın aqrotexniki qaydalara uyğun becərilməsi bol məhsul istehsalında vacib şərtdir. Əkin zamanı bu tədbirlərə əməl olunmuş, 414 hektarlıq ərazidə muxtar respublikanın iqlim şəraitinə uyğun məhsuldar "Quality" və "Qobustan" toxum sortu əkilmişdir. Payızda hər hektar taxıl sahəsinə 100 kiloqram fosfor, yazda isə 200 kiloqram azot gübrəsi verilmişdir. Bunun nəticəsidir ki, zəmilər düzgün vegetasiya dövrü keçmiş və taxıl normal inkişaf etmişdir.

Ərazidə əkin şırım üsulu ilə aparılmışdır. Bu da taxılçılıqda mühüm amildir. Çünki bu üsulun tətbiqi suvarmanın səmərəliliyi və bol məhsul yetişdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir, torpaqların şoranlaşmasının qarşısını alır.

Ali Məclisin Sədri taxıl əkini sahələrinə aqrotexniki qulluq göstərilməsinin və muxtar respublikada yaz əkinlərinin vaxtında başa çatdırılmasının vacibliyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*"Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 mart 2015-ci il tarixli Sərəncamına əsasən, dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib





Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov açıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, çağırışçı-gənclərin hərbi xidmətə çağırılmasına başlanılıb. Həm biz, həm də çağırışçılar və onların valideynləri böyük qürur hissi keçiririk ki, hərbi xidmətə çağırılan gənclərimiz Vətəni qorumaq kimi müqəddəs bir xidmətə başlayacaqlar. İndi ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bunun sayəsində Azərbaycanın təhlükəsizliyini əminliklə müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizdə hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhunun daim yüksək olması işğal altında olan torpaqlarımızın azad olunacağı günü daha da yaxınlaşdırır.

Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Elnur İsmayılov, Gənclər və İdman nazirinin müavini Məcid Seyidov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn İsmayıl İmanov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından böyük qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Bəxtiyar Əliyev Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını can-başla yerinə yetirəcəklərinə söz verib.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

## Kəngərli rayonunda növbəti məşğulluq tədbiri

*Kəngərli rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbirdə mərkəzin direktoru Məzahir Rüstəmov çıxış edərək bildirib ki, həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.*

Kəngərli Rayon İcra Hakimiyyətinin əməkdaşı Mahir İsmayılov bildirib ki, ötən illər ərzində muxtar respublikanın bütün bölgələrində, eləcə də Kəngərli rayonunda təşkil olunan əmək yarmarkalarında işaxtaran vətəndaşlara boş iş yerləri təklif olunmaqla yanaşı, onların mövcud əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına və haqqıödənilən ictimai işlərə cəlb olunması da təmin edilib. Əmək yarmarkaları əhalinin məşğulluğunun gücləndirilməsində, işaxtaranlarla işəgötürənlər arasında birbaşa əlaqələrin yaradılmasında və məşğulluq orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə keçirilmiş tədbirlərin təhlili göstərir ki, belə tədbirlərdə işaxtaran vətəndaşlar yerli məşğulluq orqanlarının xidmətlərindən daha çox bəhrələnir, işəgötürən müəssisələrin məsul nümayəndələri ilə birbaşa ünsiyyət yaratmaq imkanı qazanırlar.

İşaxtaran vətəndaş Jalə Mehdiyeva belə tədbirlərin əhali tərəfindən rəğbətlə qarşılandığını, onların müvafiq işlə təmin olunmaq imkanlarını artırdığını deyib, yarmarkanın təşkilinə görə minnətdarlığını bildirib.

Ümumilikdə, 15 təşkilatdan 96 boş iş yerinin çıxarıldığı yarmarkada 33 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## İqdır Universitetinin nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub



Türkiyə Respublikasının İqdır Universitetinin rektoru, professor-doktor İbrahim Hakkı Yılmaz və onun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov elm, təhsil sahəsində universitetlərarası əməkdaşlığın rolundan danışıb, ali təhsil ocağı haqqında ətraflı məlumat verib. Rektor qeyd edib ki, dünyanın 80-dən çox tanınmış universiteti ilə tərəfdaşlıq edən bu ali məktəbin beynəlxalq əlaqələrində Türkiyə universitetləri birinci sırada dayanır. Qardaş ölkənin 40-a yaxın ali təhsil ocağı ilə, o cümlədən Ankara, Ərdahan, Van Yüzüncü İl, Kocaeli, Qars Qafqaz, Elazığ, Ərzincan, Ərzurum Atatürk universitetləri ilə uğurlu əməkdaşlıq bundan sonra da davam etdiriləcək. Məsafəcə daha yaxın olan, Türkiyənin ən gənc ali təhsil müəssisələrindən olan İqdır Universiteti ilə 2011-ci ildə əməkdaşlığa dair protokol imzalanıb.

İqdır Universitetinin rektoru, professor-doktor İbrahim Hakkı Yılmaz qeyd edib ki, 2008-2009-cu tədris ilindən fəaliyyətə başlayan bu ali məktəbdə hazırda 6 fakültə, 2 yüksək məslək məktəbi, 3 institut və 4 elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir, 375 professor-müəllim heyəti çalışır, 3126 tələbə təhsil alır.

İki universitet arasında Mövlana mübadilə protokolu imzalanıb. Türk ali təhsil müəssisələri ilə digər ölkələrin ali təhsil müəssisələri arasında tələbə və akademik heyətin mübadiləsini həyata keçirmək məqsədi daşıyan Mövlana Mübadilə Proqramının protokoluna əsasən, Naxçıvan Dövlət Universiteti Türkiyənin digər 40 ali məktəbi ilə yanaşı, İqdır Universiteti ilə də tələbə mobilliyi həyata keçirəcək.

Türkiyəli qonaqlar universitetin İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin, rəqəmsal formatda yayımlanan universitet televiziyasının və "Nuhçıxan" radiosunun, Mətbuat şöbəsinin fəaliyyəti ilə tanış olublar.

Sonra İqdır Universitetinin Texniki Elmlər Yüksək Məslək Məktəbinin ənənəvi el sənətləri sərgisinin açılışı olub. Açılış mərasimində çıxış edən hər iki universitetin rektoru Azərbaycan və Türkiyə arasında dostluq və birliyin möhkəmlənməsində elm və incəsənətin müstəsna rolundan, mədəni əlaqələrin gələcək inkişafı istiqamətində görüləcək işlərdən danışıblar.

Türkiyənin Naxçıvandakı Baş konsulu Nihat Erşen iki xalqın tarixi bağlılığını, eyni söy-kökə malik olduğunu isbat edən ortaq mədəniyyətlərin təbliği, təsviri sənətin inkişafı baxımından belə sərgilərin təşkilini yüksək qiymətləndirib. Baş konsul bildirib ki, Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğu birgə elmi, mədəni tədbirlərin təşkilində bundan sonra da öz köməkliyini əsirgəməyəcək.

Sərginin açılışında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət və rəsmxət kafedrasının müdiri, Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, "Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev və Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, sərgi müəllifləri Rabia Karta və Pelin Güleda Karadeniz çıxış ediblər. Sərgi ilə tanışlıq zamanı məlumat verilib ki, 41 rəsm əsəri ebru, miniatür, xəttatlıq, xalçaçılıq üslubunda çəkilməklə qədim və müasir türk təsviri sənətini özündə əks etdirir. Rəsm əsərləri mövzu və kolorit baxımından orijinallığı ilə sərgi iştirakçılarında böyük maraq doğurub.

**Mehriban SULTAN**



Redaksiyanın elektron poçtundan

# Naxçıvan sabaha olan inamımızın mayakıdır

**Hələ orta məktəbdə oxuyanda kəndimizdə yaşı yüzü keçmiş Məşədi Ağa oğlu İsmayıl adlı bir kişi var idi. Ondan nə vaxt soruşsaydılar:**

*– Ay İsmayıl kişi, hardan gəlirsən?*

*– Deyirdi, Şərildən gəlirəm.*

Mən sonralar bildim ki, "Şəril" Şərur rayonunun dialektdə işlədilən formasıdır. Ancaq mən bilmədim və heç vaxt bilməyəcəm ki, İsmayıl kişi Şərilə nə məqsədlə gedib-gəlirdi. Onun Şərildə qohumları yaşayırdı, yoxsa dostları və ya tanışları var idi? Ancaq onu bilirəm ki, Kəlbəcər şəhəri də daxil olmaqla, bir neçə kəndin, o cümlədən mənim doğulduğum Daşbulaq kəndinin sakinlərindən bəzi nəsillərin ulu babaları Dərələyəz mahalından gəlmişlər. Dərələyəz və Zəngəzur mahalları isə həm coğrafi, həm də iqtisadi baxımdan Naxçıvanla bağlı olmuşlar.

Orta məktəbdə oxuyanda Naxçıvan haqqında "Koroğlu" dastanından, C.Məmmədquluzadənin, H.Cavidin və digər ədiblərin əsərlərindən məlumat almışdım. Xüsusən Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" romanında Culfa haqqında yaddaqalan təsvirlər oxumuşdum. Tarix və coğrafiya dərsliklərindən Azərbaycanın bu qədim bölgəsi haqqında müəyyən biliklər əldə etmişdim. 1988-ci ildə Qarabağ hadisələri başlayanda mən şeirlərimin birində yazmışdım:

*Niyyəti də qəlbi kimi qara olan*
*Bir ölkə var iki dağın arasında.*
*Ermənistan qında olan qılınc imiş*
*Naxçıvanla Qarabağın arasında.*

On illər, yüz illər ərzində Azərbaycanın torpaqlarını hissə-hissə parçalayan, özlərinə saxta dövlət yaradan ermənilər artıq öz qınlarından çıxmış və bizi hərtərəfli kəsməyə başlamışdılar. Vaxtı ilə Dərələyəz və Zəngəzur mahallarını bizim "könüllü" razılığımız əsasında alandan sonra Qafan və Mehri rayonlarını da həzmi-rabedən keçirən ermənilər Azərbaycanın vahid torpaqlarını parçaladılar. Ötən əsrin sonlarından isə silahlı münaqişə yolu ilə torpaqlarımızın işğalını daha da genişləndirdilər və Naxçıvanla Azərbaycan arasında quru yolu tamamilə kəsildi.

Bütün çətinliklərə və problemlərə baxmayaraq, Naxçıvan Muxtar Respublikası öz varlığını qoruyub saxlamışdır. Naxçıvanın mövcudluğu bizim milli varlığımızın təsdiqidir, bizim böyük tarixi keçmişimizin möhürüdür, sabaha olan inamımızın mayakıdır. Təəssüf ki, mənə indiyə kimi bu bölgəyə səfər etmək nəsib olmamışdı. Ancaq bir söz var, biz çıxsaq da, çıxmasaq da, qarşıda görünən dağ bizimdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və qayğısı nəticəsində 2014-cü ildən başlayaraq "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyalar vasitəsilə orta məktəb şagirdlərinin respublikamızın ayrı-ayrı bölgələrinə səfərləri təşkil edilir. Bir şəxsiyyət kimi formalaşmaq ərəfəsində olan şagirdlərin respublikamızın ayrı-ayrı bölgələrinə səfərləri onların yaddaşında əbədi qalacaq, milli mənlik və vətənpərvərlik şüurunun inkişafına yardım edəcəkdir. Dünyaya açılan pəncərə yaşadığın evdən, rayondan, ölkədən başlanır. Öz ölkəsini tanıyan dünyanı daha yaxşı tanıyacaqdır. Öz ölkəsini sevən gələcəkdə yaxşı vətəndaş olacaqdır. Öz ölkəsini öyrənən ixtisasını da yaxşı öyrənəcəkdir, yaxşı mütəxəssis kimi xalqına, vətəninə xidmət edəcəkdir.

2015-ci ilin yaz tətili günlərində "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində keçirilən növbəti səyahət turunda Göygöl rayonunun məktəbliləri Naxçıvan Muxtar Respublikasına getməli idilər. Təhsil Şöbəsi olaraq bu turda iştirak etmək istəyən ən yaxşı şagirdlərin siyahısını hazırladıq. Rayon rəhbərliyindən xahiş etdim ki, Naxçıvana səfər edəcək şagirdlərin yanında müşahidəçi (nümayəndə) kimi mənim getməyimə icazə versinlər. Beləliklə, böyük arzu və həvəslə bu səfərə hazırlaşdım. Mart ayının 21-də Qərb bölgəsindən Naxçıvana gedən şagirdlərlə birlikdə Gəncə şəhərindən ən müasir avtobusla Bakıya yola düşdük. Hava limanından "Boing-757" təyyarəsi ilə havaya qalxdıq. Həmin gün və ondan əvvəlki gün respublikamızda müəyyən qədər yağışlı, dumanlı hava şəraiti olduğu üçün təyyarədən aşağıları seyr etmək mümkün olmadı. Naxçıvan Beynəlxalq Hava Limanında bizi böyük qonaqpərvərliklə qarşıladılar.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdik, Heydər Əliyev Muzeyində və Naxçıvan Dövlət Xalça Muzeyində olduq.

Həmin gün Əcəmi seyrəngahındakı Möminə xatın türbəsi, Xan sarayı ilə tanış olduq.

Səfərimizin ikinci günü "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıqdan başladı. Biz abidəyə yaxınlaşdıqca "Qurani-Kərim"in "Əl-kəhf" surəsindəki ayələrini xatırladım. "Mağara adamları" anlamını verən Əshabi-Kəhfdə deyilənə görə, əzazil olan Dağ Yunus hökmdarın zülmündən qaçan insanlar 300 il yatmışlar. Onlar oyanıb şəhərə azuqə üçün gəlmişlər. Onların 300 il yatdıqları məlum olmuş və Əshabi-Kəhfə qayıdaraq yenidən mağarada qeyb olmuşlar. Bu yer, həqiqətən də, qeyri-adi quruluşa malikdir. Möcüzəli bir məkan təsiri bağışlayır. Burada aparılan bərpa və yenidənqurma işləri ziyarətgahı daha əzəmətli edib.

Əshabi-Kəhf ziyarətindən sonra Culfa rayonu ərazisindən keçərək Ordubad rayonuna yaxınlaşırıq. Bələdçinin verdiyi məlumata görə, Culfa rayonu ərazisində Darıdağ Arsenli Su Müalicəxanası yerləşir. Ordubad rayonu tarixi-mədəni abidələrlə çox zəngindir. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev Ordubadı "Azərbaycanın incisi" adlandırmışdır. Naxçıvanın ən yüksək zirvəsi olan Qapıcıq dağı (3904 metr) burada yerləşir. Dünya mədəniyyətinin nadir incisi sayılan Gəmiqaya ən qədim yaşayış məskənlərindən biridir. Gəmiqayada çox böyük ərazidə qayaüstü təsvirlər yayılmışdır. Bu qayaüstü təsvirlərin azı 5-6 min il yaşı var. Gəmiqaya rəsmləri Kəlbəcərdəki "Qoçdaş" və Qobustandakı qayaüstü rəsmlərlə müəyyən oxşarlıq və eynilik təşkil edir. Naxçıvanda tanış olduğum şair Elxan Yurdoğlunun təklifi ilə Ordubadda Novruz bayramı şənliyində iştirak etdim. Azərbaycanın ən qədim milli bayramı olan Novruz bayramı Ordubadda tarixi ənənələrə uyğun keçirilir. Bu muzey-şəhərin hər məhəlləsinin öz məscidi, öz meydanı var. Burda insanların rəftarı da, ləhcələri də mənə şirin və doğma gəldi. Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin ev-muzeylərini də ziyarət etdik.

Ordubad şəhər 3 nömrəli tam orta məktəbi ilə tanışlıq müəllimlərdə və şagirdlərdə xoş təəssürat yaratdı. Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Ordubad Came məscidi və digər tarixi abidələrlə tanışlıq da şagirdlərin yaddaşında xoş izlər buraxdı.

Səyahətimizin üçüncü günü Şahbuz rayonuna yola düşdük. Bələdçimizin verdiyi məlumata görə, ərazisi, əsasən, dağlıq olan Şahbuz rayonu Kiçik Qafqazın Dərələyəz silsiləsinin cənub və Zəngəzur silsiləsinin qərb yamaclarında yerləşir. Arzularımdan biri də Zəngəzur dağ silsiləsinə daxil olan Salvartı dağını görmək idi. Bu dağı mən Süleyman Rəhimovun, Əli Vəliyevin əsərlərindən, son illərdə isə tələbəlik dostum Vaqif Bayramovun yazılarından və söhbətlərindən qiyabi şəkildə tanıyırdım. İndi isə əslən Sisyan rayonunun Ağdü kəndindən olan Vaqifin səcdə etdiyi, həsrətlə xatırladığı Salvartı dağını, heç olmasa, Şahbuz tərəfdən görmək və ona baş əymək istəyirəm.

Yolboyu abadlıq, təmizlik, səliqə-sahman hökm sürür. Şahbuz rayonunun Ağbulaq kəndinə qalxanda möhtəşəm bir istirahət mərkəzi ilə qarşılaşdıq. Bizə bildirdilər ki, hər il naxçıvanlı şagirdlərin burada yay düşərgələri təşkil olunur. Bu da bir Naxçıvan yeniliyidir. Şahbuz rayonunda Dövlət Təbiət Qoruğu və Batabat Astrofizika Rəsədxanası ilə tanışlıq da şagirdlərin marağına səbəb oldu. Maşın karvanımız Naxçıvan şəhərinə doğru qayıdanda mən yenidən yol dəftərimi açıram:

*Şahbuz – buz bağlayıb ətraf təpələr,*
*Dərələr gözəldir, dağlar gözəldir.*
*Ərik ağacları çiçəkləyibdir,*
*Tumurcuq bağlayan bağlar gözəldir.*

*Elə bil ki, yanır torpağın bağrı,*
*Buludlar qaralıb çəkirmi ağrı?*
*Duman-çən enibdi yamaca doğru,*
*Təbiət dolanda ağlar, gözəldir.*

*Çətindi hər şeyi yazmaq adbaad,*
*Küçələr təmizdir, binalar abad.*
*Var olsun abadlıq yaradan ustad,*
*Salman, yaşadığın çağlar gözəldir.*

Həmin gün Naxçıvan şəhərindəki Bayraq Meydanı və Muzeyi ilə də tanış olduq. Naxçıvan torpağının hər qarışı abad və səliqə-sahmanlı görünür. Bayraq Meydanı isə öz gözəlliyinə görə xüsusən seçilir. Meydandan baxanda Naxçıvan şəhərinin panoraması insanın gözlərini oxşayır. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və Naxçıvan Dövlət Tarix Muzeyi ilə tanışlıq da şagirdlərdə xoş təəssürat yaratdı. Nuh Peyğəmbərin türbəsi yanında dayanıb bu torpağın qədim tarixi ilə öyünməmək mümkün deyil.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı bizə bildirildi ki, burada tənəffüs yolları xəstəlikləri müalicə edilir. Dadı-tamı ilə dillər əzbəri olan Naxçıvan duzu həm də böyük müalicəvi əhəmiyyəti ilə dünya şöhrəti qazanmışdır. Axşam yenidən "Duzdağ" otelinə dönürük. Şam yeməyindən sonra şagirdlər istirahət edir, kimi şahmat oynayır, kimi Naxçıvan Musiqi Kolleci tələbələrinin konsertinə qulaq asır. Bir qədər sonra mən öz otağımda oturub Naxçıvanın keçmişinə və bu gününə aid məlumatları izləyirəm. Azərbaycan elmində, mədəniyyətində, siyasətində öz yeri olan Naxçıvanın musiqi tarixində də xüsusi mövqeyi var. Dünyanın dərdini, kədərini, sevincini bir tut ağacının – sazın dili ilə demək yalnız Azərbaycan xalqına məxsusdur. Bu qədər zəngin saz musiqisini adi, istedadı az olan xalq heç vaxt yarada bilməzdi. Maraqlıdır ki, saz havalarımızın çoxu şəxs adları ilə bağlıdır. Ancaq Naxçıvanla bağlı olan "Köhnə Naxçıvani", "Naxçıvani", "Ağır Şərili", "Yüngül Şərili" kimi saz havaları bu torpaqdan pərvəriş tapmışdır.

Səfərimizin sonuncu günü avtobusumuz Sədərək istiqamətində şütüyür. Yenə də narın yağış yağır, duman dağların ətəklərinə qədər aşağı sallanır. Kəngərli rayonunun mərkəzi olan Qıvraq qəsəbəsində dayanıb Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış oluruq. Muzeydən çıxıb Qarabağlar kəndinə doğru gedirik. Kənd gözəl və abaddır. Qarabağlar başdan-başa ağ çiçəyə bürünüb, tamaşa etməyə iki göz istəyir. Qarabağlar Memarlıq Kompleksinin həyətinə düşəndə yenidən narın yağış yağır. Buradakı abidənin Hülakü xanın arvadı Quti xatının şərəfinə tikildiyi və ya onun öz vəsaiti hesabına tikildiyi ehtimal olunur.

Dördgünlük səfərimiz sürətlə gəlib keçdi. Tur-aksiyanın proqramına uyğun olaraq, martın 24-də Bakı şəhərinə qayıtdıq.

Naxçıvan səfərinin başa çatmasından 15 günə yaxın vaxt ötüb. Ailəmizdə, ətrafımızda olan insanlar məndən səfər təəssüratlarım haqqında soruşurlar. Mən onlara ağızdolusu təriflər söylədikcə kimi şübhə, kimi həqiqət gözü ilə dediklərimi dinləyir. İndi mən özüm də dördgünlük səfərimi xəyal gözü ilə yenidən nəzərdən keçirir və gördüklərimi bir daha saf-çürük edirəm. Naxçıvan hava limanına enən ərəfədə hələ təyyarədə ikən pəncərədən ətrafı mümkün qədər seyr etməyə çalışırdım. İlk baxışda mənə Naxçıvan dağlar arasına sıxışdırılmış məhzun görkəmdə göründü. Ancaq hava limanından Naxçıvan şəhərinə gedəndə olduqca təmiz və abad bir şəhərə daxil olduğumu hiss etdim. Geniş küçələr, təmiz, səliqəli səkilər, müasir, yeni üslubda tikilmiş binalar sıxılmış əhval-ruhiyyəmi bir andaca dəyişdi. Gəzib-gördüklərimdən sonra bir daha əmin oldum ki, Azərbaycan xalqının tarixinin mühüm məqamlarının böyük bir hissəsi burada qayğı və diqqətlə qorunur. Hər şeydən əvvəl, bu bölgənin insanları çox istiqanlı, səmimi və hörmətcil təsiri bağışladılar. Bizimlə görüşən və ya ayrı-ayrı yerlərdə xidməti vəzifə başında olan məmurlar da olduqca məsuliyyətli, mehriban və qayğıkeş idilər. Şahbuz şəhərində Zahid adlı bir sürücünün, Qarabağlar kəndinin bələdiyyəsi Nurəddin adlı bir ağsaqqalın qısa vaxt ərzində olsa da, söz-söhbətlərinin dadı-duzu hələ də damağımdan getməyib. Hətta taksi sürücülərinin geyimi, təmizliyi, maşınların sıra ilə düzülüşü buradakı nizam-intizamdan xəbər verirdi.

Muxtar respublikanın bütün bölgələrinə asfalt yol çəkilmiş, bütün yolların kənarlarına ağaclar əkilmişdir. Çox yaxşı haldır ki, ağacların, demək olar, hamısı meyvə ağaclarıdır. Ağacların hamısının gövdəsi eyni qaydada ağardılmışdır. Sanki muxtar respublikanın bütün ərazisində eyni bir bağban əli işləmişdir. Bu da abadlığın, bolluğun, firavanlığın bir göstəricisidir. Nəinki şəhərlərdə, kəndlərdə belə, eyni qaydada müasirlik, təmizlik, səliqə-sahman var. Kənd küçələrinin hər birində təmizlik qutuları qoyulmuşdur. Yolların kənarında bir dənə də olsun atılmış boş butulkalara, sellofan torbalara rast gəlmədim. Hər bir kənddə səliqə ilə tikilmiş məktəb binaları, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları göz oxşayır. Su, işıq və qaz problemi, ümumiyyətlə, yoxdur. İş yerləri çox olduğundan insanlar öz həyatlarını normal şəkildə təmin edə bilirlər. Küçələrdə boş gəzən insanlara rast gəlmək mümkün deyil.

*"Dədə Qorqud" dastanında deyilən "Oğuz igidlərini saymaqla qurtarmaz" ifadəsini mən Naxçıvan Muxtar Respublikasının son illərdə qazandığı nailiyyətləri saymaqla qurtarmaz kimi ifadə etmək istərdim. Naxçıvanlılar çox xoşbəxtdilər ki, belə müasir, abad, insana qayğının yüksək səviyyədə olduğu, hər kəsin əməyinin qiymətləndirildiyi bir regionda firavan yaşayırlar.*

**Salman BALAKİŞİYEV**
***Göygöl rayonu, müəllim***

*İdman xəbərləri*

# Naxçıvanı ölkə birinciliyində təmsil edəcək komandalar məlum oldu



***Şərur Rayon Olimpiya-İdman Kompleksində keçirilən futbol üzrə uşaqlar arasında muxtar respublika birinciliyinə yekun vurulub.***

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşkil etdiyi və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının dəstək verdiyi birincilikdə muxtar respublikanın şəhər və rayonlarının, ümumilikdə, 56 komandası iştirak edib. 10, 11, 12, 13 və 14 yaşlı uşaqların çempionatı ilə yanaşı, ümumtəhsil məktəblərinin 7 və 9-cu sinif şagirdləri “Məktəbli kuboku”nda mübarizə aparıblar. AFFA-nın təşkil etdiyi birincilik olimpiya sistemi üzrə keçirilib. Final görüşləri isə dünən başa çatıb.

Keçirilən 7 final qarşılaşmasının 6-da Şərur məktəblilərinin çıxışı diqqətdən yayınmayıb. 10 yaşlı uşaqların final qarşılaşmasında ordubadlı və şərurlu futbolçular meydana çıxıblar. Daha baxımlı oyun sərgiləyən ordubadlılar meydanı 6:5 hesablı qələbə ilə tərk ediblər. Bu, Şərur futbolçularının final matçında yeganə məğlubiyyətləri deyil. 13 yaşlı futbolçuların final matçında şahbuzlu həmkarları ilə qarşılaşan şərurlular yenə məğlub olublar – 4:5. 12 yaşlı gələcəyin futbolçuları arasında həlledici qarşılaşma yenə Şərur və Şahbuz komandalarını üz-üzə gətirib. Bu görüşdə üstünlüyü sonadək qoruyan Şərur futbolçuları qalib adını qazanıblar – 5:1. Onlar kimi, 14 yaşlılar da digər iki məğlubiyyəti unutdurmağa müvəffəq olublar. Şərur komandası bu dəfə finalda Naxçıvan şəhərinin komandası ilə qarşılaşıb və meydanda üstün olan tərəf məhz şərurlular olub – 3:1. Turnirin ən gərgin final qarşılaşması isə 11 yaşlı futbolçular arasında olub. Həlledici görüşdə üz-üzə gələn Şərur və Şahbuz futbolçularının səylərinə baxmayaraq, oyunun əsas və əlavə vaxtı heç-heçə (4:4) başa çatıb və qalib penalti zərbələrindən sonra müəyyənləşib. Zərbələri daha dəqiq yerinə yetirən Şahbuz komandası öz yaş qrupunda qalib adını qazanıb – 10:9.

“Məktəbli kuboku”nda isə muxtar respublikanı ölkə birinciliyində təmsil edəcək komandaların adlarına aydınlıq gətirilib. 7-ci sinif şagirdləri arasında keçirilən futbol yarışının finalında Naxçıvan şəhərinin və Şahbuz rayonunun məktəbliləri üz-üzə gəliblər. Rəqibinin daşını daş üstə qoymayan Naxçıvan şəhərinin məktəbliləri asan qələbə qazanıblar – 8:2. 9-cu sinif şagirdlərinin final qarşılaşmasında isə Culfa və Şərur məktəbliləri qalibi müəyyənləşdirməyə çalışıblar. Bu görüş şərurlu futbolçuların qələbəsi ilə nəticələnib – 0:2.

Qeyd edək ki, hər yaş qrupunda qalib olan komandalar, həmçinin “Məktəbli kuboku”nu başı üzərinə qaldıran komandalar Naxçıvan Muxtar Respublikasını göstərilən yaş qrupları üzrə Azərbaycan çempionatında təmsil edəcəklər.

# Poliatlon çoxnövçülüyü üzrə birinciliklər keçirilib

Dünən Naxçıvan şəhərində yerləşən “N” hərbi hissədə yaz çağırışına həsr olunmuş “Vətənin müdafiəsinə hazıram” (VMH) poliatlon çoxnövçülüyü üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 12 tam orta məktəbin komandası iştirak edib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu cür yarışların keçirilməsi yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalarına, vətənpərvərlik hislərinin aşılanmasına və gənclərin hərbi xidmətə hazırlıq səviyyələrinin yüksəldilməsinə kömək edir. Sonra Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin nümayəndəsi, leytenant Əli Kazımov çıxış ediblər.

Poliatlon dördnövçülük proqramına uyğun olaraq, yarış 100 metr qaçış, 2000 metr kross qaçışı, qumbaraatma və turnikdə dartınma növləri üzrə təşkil edilib. Yarışın yekununa əsasən, 16 nömrəli tam orta məktəbin komandası birinci yerə layiq görülüb. 1 nömrəli tam orta məktəbin komandası ikinci, 7 və 2 nömrəli tam orta məktəblərin komandaları isə üçüncü olublar.

Sonda I, II, III yerləri tutan komandalara təşkilatçıların kubok, diplom və fəxri fərmanları təqdim edilib.

* * *

Babək qəsəbəsində Babək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə rayon ümumtəhsil məktəblərinin komandaları arasında “Vətənin müdafiəsinə hazıram” (VMH) poliatlon çoxnövçülüyü üzrə keçirilən birinciliyə yekun vurulub. Birinciliyin keçirilməsində məqsəd rayonun bədən tərbiyəsi və idman kollektivlərində, qəsəbə və kəndlərində “VMH” çoxnövçülüyünü yeniyetmə və gənclər arasında təbliğ etmək, çağırışyaşlı və çağırışaqədərki gəncləri hərbi-vətənpərvərlik ruhunda tərbiyə etmək, onların Milli Orduda layiqincə xidmət etmələri üçün fiziki hazırlıq səviyyələrini yüksəltməkdən ibarət olub.

Yarışda əvvəlcə Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı, rayon Təhsil Şöbəsinin əməkdaşı Müslüm Vəliyev çıxış edərək yarış haqqında ümumi məlumat veriblər və iştirakçılara uğurlar arzulayıblar.

Proqram üzrə yarış 10 komandadan 50 idmançının iştirakı ilə 100 metr məsafəyə qaçışdan, 2000 metr məsafəyə kross qaçışından, qumbara atmaqdan və turnikdə dartınmaqdan ibarət olub. Reqlamentə əsasən, hər bir komandanın bütün üzvləri proqramda göstərilən növlərin hamısında iştirak ediblər.

Yekun nəticəyə görə, birinciliyin qalibi adını 735 xalla Babək qəsəbə tam orta məktəbinin komandası qazanıb. Nehrəm kənd 1 nömrəli tam orta məktəbin komandası ikinci (648 xal), Hacıvar kənd tam orta məktəbinin komandası (636 xal) üçüncü yerlərə layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

# Culfada voleybol yarışı

Naxçıvan Muxtar Respublikasının Voleybol Federasiyasının Culfa rayon bölməsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə Əbrəqunus kənd tam orta məktəbinin idman zalında məktəblilər arasında voleybol yarışına yekun vurulub. Bu idman yarışının keçirilməsində əsas məqsəd voleybol oyununu şagirdlər arasında yaymaq və kütləviləşdirmək, onların voleybol ustalığını artırmaq və yarış təcrübəsini təkmilləşdirmək, həmçinin istedadlı voleybolçuları müəyyənləşdirməkdir.

Olimpiya sistemi ilə keçirilmiş yarışda 1998-2000-ci il təvəllüdlü oğlan şagirdlər iştirak ediblər. Rayonun ümumtəhsil məktəblərinin 10 komandasının iştirak etdiyi voleybol birinciliyində Əbrəqunus kənd tam orta məktəbinin komandası birinci, Xanəgah məktəbliləri ikinci, Qızılca kənd tam orta məktəbinin komandası isə üçüncü yerləri tutublar.

Qalib komandalar rayon Təhsil Şöbəsinin və Uşaq-gənclər idman məktəbinin diplom və hədiyyələri ilə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

*Gəncliyimiz, gələcəyimiz*

# Gənclərimiz xaricdə təhsillərini uğurla davam etdirirlər

***Azərbaycanda elmin, təhsilin inkişafı onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikada da öz real inikasını tapmaqdadır. Yüksəkixtisaslı gənc alim və mütəxəssislərin hazırlanması, onların intellektual səviyyələrinin yüksəldilməsi üçün Naxçıvan Dövlət Universitetində də mühüm işlər görülür.***

Son iyirmi ildə Naxçıvan Dövlət Universiteti elmin, təhsilin tərəqqisinə göstərilən yüksək dövlət qayğısından bəhrələnərək müasir universitet kimi formalaşıb, ölkənin qabaqcıl ali məktəblərindən birinə çevrilib. Dünya elm, təhsil sisteminə uğurla inteqrasiya edən bu ali məktəbdə son iyirmi ildə qazanılan əsas uğurlardan biri də tələbə mobilliyinə nail olunmasıdır. Tələbə və doktorantlarımız dünya təhsil təcrübəsini mənimsəmək məqsədilə Türkiyə, Rusiya, Gürcüstan, Rumıniya, Çexiya, İspaniya kimi ölkələrdə təhsillərini uğurla davam etdirirlər. Həmyerlimiz Şəhanə Hüseynova da “Erasmus Mundus” proqramı çərçivəsində xaricdə doktorantura təhsili alan ilk azərbaycanlıdan biridir.

Şəhanə Hüseynova 2002-2006-cı illərdə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq fakültəsində “kimya müəllimliyi” ixtisası üzrə ali təhsil alıb. 2006-2008-ci illərdə həmin ali məktəbdə “qeyri-üzvi kimya” ixtisası üzrə magistratura təhsil pilləsində oxuyub. 2008-ci ildə Naxçıvan Dövlət Universitetinin “qeyri-üzvi kimya” ixtisası üzrə doktorantı olub.

“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na əsasən, gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq məqsədilə müraciət etmək imkanı verilmişdi. 2012-ci ildə Avropada ali təhsil keyfiyyətini yüksəltmək və mədəniyyətlər arasında üçüncü ölkələrlə əməkdaşlıq yolu ilə qarşılıqlı anlaşma yaratmaq məqsədilə Avropa və qeyri-Avropa universitetləri arasında tələbə və təhsil mübadiləsi həyata keçirən “Erasmus Mundus” proqramının maliyyələşdirdiyi “ALRAKIS” layihəsi çərçivəsində Azərbaycandan 5 bakalavriat, 2 magistrant və 2 doktorant olmaqla, 9 tələbə seçilir. Layihənin doktorantura üzrə iki nəfər qalibindən biri Şəhanə Hüseynova olur. 2012-2014-cü illərdə doktorantura təhsilini İspaniyada, Santiago de Compostela Universitetinin Kimya fakültəsində davam etdirən Şəhanə hazırda universitetin Kimya fakültəsinin nəzdindəki Nanotexnologiya və maqnetizm laboratoriyasında elmi işçi kimi çalışır, “Metal klasterlərin sintezi və katalitik xassələrinin öyrənilməsi” mövzusunda araşdırma aparır. O, ingilis və ispan dillərini öyrənməklə yanaşı, kompüter biliklərinə də malikdir. 8 elmi məqalə, 2 tezis, 120 publisistik məqalə müəllifidir.

Sosial şəbəkə vasitəsilə həmsöhbət olduğum Şəhanə Hüseynova dedi ki, sözügedən layihədə Azərbaycanın çox az universiteti təmsil olunurdu və həmin təhsil ocaqlarından biri də məhz Naxçıvan Dövlət Universiteti idi.

Doktorantura təhsilini uğurla başa vuran Şəhanə Hüseynova apardığı elmi-tədqiqat işi barədə də məlumat verdi: “Nanotexnologiya ilə məşğul olan dünya alimlərinin son illər ən çox diqqət göstərdiyi sahələrdən biri də nanohissəciklərin və nanoklasterlərin sintezi, xassələrinin öyrənilməsi və tətbiqi sferası məsələləridir. Nanoklasterlərin öyrənilməsi yeni bir sahə olduğundan bununla çox az qrup məşğul olur. Bu qruplardan biri mənim də tərkibində olduğum, NANOMAG laboratoriyası nəzdində fəaliyyət göstərən qrupdur. Qrup rəhbəri professor Arturo Lopez Quintelanın rəhbərliyi ilə mövzumla bağlı araşdırma aparıram. Mövzunun ən əsas əhəmiyyət kəsb edən tərəflərindən biri odur ki, sintez olunan klasterlər bu gün kimyanın ən mühüm tətbiq sahələrindən biri olan kataliz sahəsində müstəsna yer tutur”.

Həmyerlimizin 2014-cü ilin iyun ayında İspaniyanın Madrid şəhərində keçirilən 4-cü beynəlxalq kolloidlər konfransındakı çıxışı, “Kiçikölçülü platin və mis klasterlərinin suda sintezi və xassələrinin öyrənilməsi” mövzusundakı tezisi (David Buceta ilə birlikdə, professor Arturo Lopez Quintelanın rəhbərliyi ilə) maraqla qarşılanıb.

Həmyerlimizin Santiago de Compostela Universitetinin NANOMAG laboratoriyasındakı qrupla birgə apardığı araşdırma nəticəsində ərsəyə gələn “Yüksək davamlılıq və katalitik aktivlik göstərən metal klasterlər: nukleativ nəticələr və böyümə teorisi” adlı məqaləsi isə 2015-ci ilin yanvar ayında Avropanın məşhur elmi jurnallarından birində nəşr olunub.

Tezliklə vətəninə qayıdıb qazandığı bilikləri sevə-sevə öz xalqının övladlarına tədris etmək, Azərbaycan kimya elminin inkişafına xidmət etmək arzusunda olduğunu bildirən Şəhanə bu gün elmi-tədqiqat yolu tutan gənc doktorantlarımızı həqiqi bir alim kimi yetişmək üçün yorulmadan çalışmağa, mütaliə etməyə, elmə məsuliyyətlə yanaşmağa çağırır: “Bütün tələbələrə, elmi-tədqiqat yolunu tutan gənclərimizə bu yolda uğurlar arzu edirəm. Xaricdə təhsil alan həmvətənlərimiz unutmasınlar ki, Vətənin gözü onlardadır. Dövlətimizin bizə göstərdiyi etimadı, bizim təhsilimiz üçün çəkilən zəhməti ancaq qayıdıb Vətənə, xalqa fədakarlıqla xidmət etməklə doğrulda bilərik”.

**Mehriban SULTAN**

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu haqqında Elan

1. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu 2015-2016-cı tədris ili üçün muxtar respublikanın ümumtəhsil məktəblərinin hazırda VI, VII, VIII, IX siniflərində təhsil alan oğlan şagirdlər arasından müsabiqə yolu ilə seçiləcəkdir.

2. Liseyə sənəd qəbulu Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2015-ci il aprel ayının 15-dən may ayının 10-dək aparılacaqdır.

3. Liseyə qəbul üçün şagirdlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- müvafiq ərizə;
- təhsil aldıqları məktəbdən arayış;
- doğum haqqında şəhadətnamənin (şəxsiyyət vəsiqəsinin) notarial qaydada təsdiq edilmiş surəti;
- iki ədəd 3x4 sm ölçüdə rəngli fotoşəkil.

4. Liseyə qəbul imtahanları 11-16 may 2015-ci il tarixdə test üsulu ilə aparılacaqdır.

**Əlavə məlumat almaq üçün sənəd qəbulu komissiyasına müraciət olunmalıdır.**

**Əlaqə telefonları: 545-02-16; 545-02-06**

### İtmişdir

Niftəliyeva Mirəstə Dilavər qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Tumbul kəndində yaşamış Məmmədov Məmməd Tağı oğlunun adına olan JN-175$^{A}$ inventar nömrəli, 10307028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 287